JOURNAL OF IQRO - ЖУРНАЛ ИҚРО – IQRO JURNALI – volume 8, issue 1, 2024
ISSN: 2181-4341, IMPACT FACTOR (RESEARCH BIB) – 7,245, SJIF – 3,934

Azerbaijan State Pedagogical University, head teacher of "Azerbaijani Literature" department, Ph.D. With the opinion of Ulduz Kahramanova Farhad gizi

Günel Hümmətova (Pəniyeva) Saleh
Azərbaycan Dövlət Pedaqoji Universiteti,Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının baş müəllimi, fil.ü.f.dok.
Mail: gunelpeniyeva@mail.ru
Orcid ID:0000-0002-8916-3484
Tel.+994559176817

INVESTIGATION OF SPIRITUAL AND MORAL PROBLEMS IN SEYRAN SAHAVAT'S NARRATIVES

Summary: In the article, a general picture of the works of Seyran Sakhavet, one of the leading representatives of Azerbaijani prose, was created and the main idea was emphasized on the spiritual and moral values reflected in these works. The main idea was revealed by turning the main characters of the stories into a cone of analysis.

Key words: Seyran Sakhavat, narrative, prose, example, literary criticism.

SEYRAN SƏXAVƏTİN POVESTLƏRİNDƏ MƏNƏVİ-ƏXLAQİ PROBLEMLƏRİN İNİKASI

Annotasiya: Məqalədə Azərbaycan nəsrinin görkəmli nümayəndəsi Seyran Səxavətin povestlərinin ümumi mənzərəsi yaradılmış və həmin əsərlərdə əks edilən mənəvi-əxlaqi dəyərlərə əsas fikir yönəlmişdir. Povestlərin əsas qəhrəmanları təhlil obyektinə çevrilərək əsərin əsas ideyası aşkarlanmışdır.

Açar sözlər: Seyran Səxavət, povest, nəsr, nümunə, ədəbi-tənqid.

Seyran Səxavətin 70-80-ci illərdə yazdığı povest və hekayələrində qoyduğu əsas ideya mənəvi-əxlaqi problemlərin bədii əksi və bu yöndə baş vermiş həqiqi həyat hadisələrinin ictimai-siyasi mahiyyəti və eyni zamanda, baş vermə prosesi əks edilmişdi. Yazıçı qoyduğu problemlərin aktuallığından və əhatə etdiyi arenasindan asili olaraq onun bu illərdə yazdığı povestləri belə qruplaşdira bilərik : sirf mənəvi əxlaqi problemləri özündə ehtiva edən, patriarxal insan tipini və onun başina gələn həyat həqiqətlərini bədii təsvir obyektinə çevrilmiş, ailə-məişət zəminin də yaranan - "Qapıların o üzündə qalan dünya" povesti, muharibə dövründən sonrakı illərdə kənd həyatının bütün mürəkkəbliyi və zidiyyətlərinin təsvir predmetinə çevrən, bu həyatın ictimai-sosial durumunu tam dolğunluğu ilə özündə əks etdirən – "Ağrı" povesti, şəhərləşmək istəyən, öz kökünə zidd çıxan, şəhər adət-ənənələrini öz tarixi, milli kənd adət-ənənəsindən üstün tutan – "Gözü işığa düşmüş adam" povesti, ülvi hiss olan təmiz məhəbbətin nakam sonuc ilə sonlanmasının əsas səbəbi kimi insan iradəsinin zəifliyi, insan nəfsinin güclülüyü və bu nəfsə nələrəsə görə boyun əyməyin yaratdığı problemlərini əks edildiyi "Bir stəkan hava" povestini və s. bu kimi povestlərini bu cür quruplar şəkilində müəyyənləşdirsək yalnış etmərik. Biz yazıçının povestlərinin məzmununa uyğun qruplaşdırmamıza baxmayaraq deyə bilərik ki, müəllif bütün povestlərində istər yuxarıda qeyd etdiyimiz povestlərində, istərsə də "Başı kəsik arvadın oğlu", "İsax- Musax", "Qızıl teşt" və eynizamanda 80-ci illərdə yazdığı "Ocaq daşı", "Gecə quşu", "Dar köynək", "Sanatoriya" kimi povestlərində mənəvi-əxlaqi problemlərə az və ya çox dərəcədə toxunmuş, bəzilərində isə əsərin ideyasını təşkil etmişdi

Yazıçının müharibə dövründən sonrakı kənd həyatını təsvir etdiyi, 1977-ci ildə yazdığı ilk iri həcimli əsəri olan "Ağrı" povestinin əsas mövzusu müharibədə həyat yoldaşı həlak olmuş, dörd uşaqla başsız qalmış bir qadının həyat yolundan bəhs edir. Eyni zamanda, müharibənin ağır günlərində kənd adamlarının mətinliyi, əzmi, iradəsi Firəngiz xalanın, Abuzərin, Əhlimanın, Xıdırın, Lətifənin, el ağsaqqalı Qurban kişinin, ümumiyyətlə Qarabağın Yağlıvənd kənd camaatının şəxsində öz bədii həllini tapmışdı.

Povestin baş qəhrəmanlarından olan Firəngizi kənd camaatı öz adı ilə yanaşı onu bir neçə adla da çağırırdılar: "Əsgər ailəsi", "Gəlmə", "Yetim anası..." . Belə adlandırılmasının da öz səbəbləri var idi ki, "Əsgər ailəsi" ona görə deyilirdi ki, əri müharibədə idi, "Gəlmə" onua görə deyilirdi ki, o bu kəndə dağlıq kənddən gəlmişdi, "Yetim anası" ona görə deyilirdi ki, ilk dəfə idiki onun uşaqları yetim idi. Sonra isə bu kənddə yetim analarının sayı çoxaldı, yetimlərin sayı isə birə dörd artdı. Müharibənin fəsadları, onun insan taleyində etdiyi dəyişikliklər və ondan doğan ictimai-siyasi problemlər, eyni zamanda insan mənəviyyatına təsiri böyük ustalıqla təsvir edilmişdi. Bu kəndə dörd yetimi ilə pənah gətirən Firəngizə kəndin ağsaqqalı sayılan Qurban kişinin qol-budaq olması, onun uşaqlarına mənəvi atalıq edən bu insanın timsalında yazıçı hələ də mənəviyyatca yüksək olan insanların varlığını təsvir etmişdi. Qurban kişi başsız qalmış bu ailənin yeganə təsəlli verəni, məsləhətçisi, böyüyüdür. O, şərə və pisliyə nifrət edən, hətta qardaşı Mustafanı, onun harın ailəsini də lənətləməkdən çəkinməyən namuslu el ağsaqqalıdır. Məhz, müəllif də bu cür obrazlarda müharibə dövründə belə el ağsaqqallarının kənddə, el-obada etdiyi xeyirxahlıqları ümumiləşdirmişdi. Qurban kişi xalqımızın əsirlərin sınaqlarından çıxmış ən yaxşı milli keyfiyyətlərini özündə birləşdirir. Bu xarakter Abuzərdə də özünü biruzə verir. Onun anasına qarşı olan qayğısı, şəhərə gedə-get ərəfəsində kolxozun bütün işlərində işləyərək mingünlük yığması, Nabata olan saf sevgisi, çır armud satmağa gələn satıçıya kömək etməsi və onun üstündə Nəsrəddini döyməsi onun əxlaqi keyfiyyətinin yüksəkliyindən xəbər verir. Eyni zamanda Mustasa kişinin onlar üçün gətirdiyi azuqəni qəbul etməməsi, Qurban kişinin isə onların üstündəki böyük zəhmətini unutmaması və şəhərdən gəlmiş xanəndəyə onu ata kimi göstərməsi Abuzərin mənəviyyatının və əxlaqının tarixi milli dəyərlərdən qaynaqlandığını qeyd edə bilərik.

Povest haqqında V.Yusiflinin ".... Diqqəti və bədii marağı yeniyetmə kənd uşaqlarının müharibə haqqında düşüncələrinə, atasızlıq əzablarına, analarının müqəddəs kədərinə yönəldən müəllif təsirli bir povest yaratmışdı"(5.s.5) fikri ilə tam razılaşmaq olar, doğrudan da yazıçı istər müharibə dövründən sonrakı həyat tərzini, istərsə də bu dövrün ağrı-acısını duyan və onun zülmü altında yaşamağa çalışan insan obrazlarını, onların həqiqi həyat hadisələrini gerçəkliyi ilə təsvir obyektinə çevirmişdi.

Seyran Səxavətin 70-ci illərdə yazdığı digər bir povesti də 1978-ci ildə qələmə aldığı "Bir stəkan hava" povestidir. Bu povest yığcamlığına baxmayaraq, kankret bədii mətləbi, lirik-psixoloji üslubu ilə diqqəti cəlb edir. Yazıçı oxucunu həqiqi sevginin başı üzərindən illər, hətta əsrlər ötsə də onun insanın iliyində, qanında yaşadığına, əsl məhəbbət naxışlarının heç zaman solmadığına inandırmağa çalışmışdı və buna da nail onlmuşdu.

Povestin əsas məzmunu atılmış bir səhv addımın nəticəsində illərcə qəlbdə yaşanılan sevginin və bu sevgini öz qəlblərində böyüdüb, çiçəkləndirən iki obrazın Sarvan və Sevərin mənəvi faciəsidir. Yazıçı xəyali söhbətlər, daxili monoloqlar, orijinal metaforalar, fantastik təsvirlər, şərti-simvolik obrazlar vasitəsi ilə qəlbin qəmli tarixcəsini vərəqləyir və bizi böyük sevginin gücünə, qüdrətinə inandırır. Əsərdə ayrı-ayrı surətlərin mənəvi aləmi, dünyagörüşü və həyat mövqeyi çox vaxt keçmişə qısa bir səyahət etməklə, xatirələrə dalmaqla, olub keçənlərə bu günün zirvəsindən baxmaqla aşkarlanır. Aşkarlanan bu həyat hadisələrinin inkişaf xəttini müəyyənləşdirsək onda belə bir model almış olarıq: Sarvan-Sevər-Sevil münasibətləri və bu münasibətlərdən doğan

ziddiyətli həyat hadisələri və onun fəci faciəsi. Baş vermiş hadisələr bu üç obrazın mənəvi dünyası, düşüncəsi və onların daxil olduğu ailə çərçivəsində Zivər və Səyavuşun vastəsi ilə cərəyan edir. Bir zaman bir-birlərini böyük məhəbbətlə sevən bu iki gəncin atdıqları yalnış bir addım onları bir-birlərindən ayrı düşməsinə gətiib çıxardır. Sevər Sarvan məhəbbəti əsərin ilk səhifəsində təsvir edilmiş hadisə ilə yenidən alovlanır. Onlar illərdən sonra bir-birlərini bir konsert zalında görürlər və sanki onların qəlblərində solmuş, hətta çürüyüb torpağa qarışmış məhəbbətləri yenidən çiçəklənir. Onlar daxilən bir-birləri ilə birgə idilər. İstər Sevər, istərsə də Sarvan zahirən həyat yoldaşlarının yanında idilər. Bu iki qəhrəman öz sevgililərinin özləri ilə, öz qəlblərində aparırdılar. Sevər Sarvanı özü ilə öz evinə belə gətirmişdi, hətta yatanda da özü ilə yatırmışdı. Konsertdə oxunan hər bir musiqini Sevər və Sarvan zaldakıların hamısından yaxşı hiss edir, yaxşı duyurdu. Sanki muğənni oxuduğu mahnıları yalnız onlar üçün oxuyurdu. Onların taleyindən yazmışdı. Onların mahnının hər bir sözündə özlərini tapacaqlarını bilirdi. Onları etdikləri səhvi dərk etmələrinə vadar edirdi. Sevər etdiyi yalnışı ömürü boyu dərk etmişdi, lakin bu gün daha yaxşı dərk edib öz faciəsinə ağı deyən müğənninin mahnılarının sədası altında göz yaşı tökürdü.

Povest “Bir stəkan hava” adlanır. “Bir stəkan hava” - Sevərin stəkandan damla-damla nəlbəkiyə töküb, qurtum-qurtum içdiyi sevginin, ümidin, həsrətin damlası, gələcəyə inamın bir qurtumu idi. O içdiyi bu hava ilə yanaşı illərlə qəlbində bəslədiyi məhəbbətinə güc-qüvvə verirdi. Lakin onun qəlbini zəiflədirdi, şüurunu əlindən almağa çalışırdı. Onun qəlbi bu qədər həsrətə, intizara tab gətirə bilmir, stəkandan nəlbəkiyə tökdüyü ümid damlaları belə onun ürəyinə məlhəm ola bilmirdi.

Əsərdə mənəvi-əxlaqi dəyərləri özlərində cəmləşdirən bu qəhrəmanlar nə qədər bir-birlərini sevsələr də öz əxlaqi dəyərlərinə xələl gətirmirlər. Nə Sevər, Nə də Sarvan öz məhəbbətləri naminə həyat yoldaşlarına xəyanət etmirlər. Onlar öz nəfslərinin qurbanına çevrilmirlər. Hətta onlar bir-birləri ilə görüşəndə də dost kimi görüşür. Olanları xatırlamaq istəmirlər, bu onların düşüncəsinə görə kiməsə qarşı xəyanət etmək kimi dəyərləndirilir. Sarvan özü-özlüyündə düşünür ki, o Səvəri sevdiyi üçün Sevilə xəyanət edir.Onun üçündə özünü günahlandırır. Bundan çıxış nöqtəsi axtarır. Özünə bəraət qazandrmaq və Sevilin fikrin öyrənmək üçün öz taleyin başqa birinin adı ilə Sevilə danışır, sanki ondan bir çıxış yolu, bir kömək umur. Sevil isə özlüyündə yüksək mənəviyyata, gözəl ürəyə və təmiz məhəbbətə malik olduğu üçün bu sevgini yüksək qiymətləndirir və hətta yazıçı olsaydı belə bu mövzuda bir əsər yazardı və sonun da onların birləşməsi ilə nəticələndirərdi. Sevər bilmədən öz böyük sevgisin öz əli ilə kiməsə bağışlayırdı. Sevər isə Sevilin yaza bilmədiyi əsəri öz xəyalında canlandırırdı. O Sevilin sevgisin əlindən alıb öz xəyalında özü ilə evləndirmişdi. Beləki. povest Sevərin düşüncələrində Sevər və Sarvanın toyu ilə bitir. Yazıçının əslində birləşdirmək istədiyi, lakin məməvi-əxlaqi dəyərlərə zidd gələn bu hadisəni obrazının fikrində əks etdirir. Hətta fikirdə belə Sevər oğlanlarından etdiyi hərəkətə görə xəcalət çəkir.

Əsərin digər obrazları olan Zivər və Səyavuş isə hadisələrin inkişafında böyük rol oynayırlar. Əsərdə onların bir-birlərinə olan böyük sevgiləri, bu sevgini daim qəlblərində yaşadan, bir-birlərini anlayan sevgiləri əks edilmişdi. Sanki yazıçı Sevər Sarvan sevgisinin fonunda Zivər Səyavuş sevgisini yaratmış və atılmış səhv addımın sonunun hara gəlib çıxaçağını göstərməyə çalışmış, bundan bir nəticə çıxartmalarını tövsiyə edirdi. Zivər Səyavuş bu sevginin şahidi olandan sonra bir-birlərinə böyük məhəbbətlə bağlanmışdılar. Hətta bu çütlük məğlubiyyətə uğramış sevgini yenidən çiçəkləndirməyə və birləşdirməyə çalışırdılar. Buna həyatda malik olmasalarda Sevərin xəyallarında nail oldular. Yazıçı bununla bildirmək istəyir ki, atdığınız hər bir addımı götür-qoy edin sonra atın, elə iş görün ki sonra peşiman olmayasınız və əsərin əsas məzmumundan gəldiyimz nəticəni belə bir atalar sözü ilə ifadə etsək səhv etmərik: “Son peşmançılıq fayda verməz”.

Seyran Səxavətin 70-ci illər nəsrinin böyük bir hissəsini hekayələri təşkil edir. Yazıçının bu illərdə yazdığı "Hamı elə bilirdi", "Dəyirmanın boğazında", "Alça çiçəyi", "Toy havası", "Çayçı Rəşid", "Paravoz sürən", "Ət taxtası", "Yüz ilin kişisi", "Bir kisə kartof", "Madonnanın əri Fərəməz kişi", "İşıq xətləri", "Yaz oğrusu", "Mən kiməm", "Qaçay müəllim", "Gün ağladılar", "Qara Bəhrəm", "Qız qalası", "Halal pul" və s. bu kimi hekayələrində mənəvi-əxlaqi problemlərə toxunmuşdu.

Seyran Səxavətin adını 1979-cu ildə çap edilmiş "Hamı elə bilirdi..." adlı kitabının sərlövhəsinə çıxartdığı hekayəsinin əsas mövzusu da müharibə illərinin törətdiyi maddi fəsadların gerçəkliklərinin təsviridir. Hekayənin baş qəhrəmanı olan el ağsaqqalı Bəylər kişinin mənəvi portreti evindən kolxoz həyətinə qədər olan yol uzunu çəkilir. Onun insanı tərbiyələndirmə yolu, insan xarakterinin psixologiyasında sərt dönüşün yaratması kimi xarakteri bacısı oğlu Bəhramın kolxozun dərz tayasını yandırmaq istəməsində aşkarlanır. Beləki, Bəylər kişini çağırırlar ki, bacın oğlu Bəhram kolxozun tayasını yandırır gəl onu bu işdən çəkindir. Bəylər kişi də bu çağırışdan ilk bağışda laqeyd qalır, yerişinə haram qatmır. Onu aparmağa gəlmiş maşına da minmir, yol boyu kolxozçu Şirinlə keçmiş, gələcək haqqında mübahisə edir. Xeyli getdikdən sonra Bəylər kişi soruşur:

- " Nə deyir? Deyir niyə yandırram tayanı?

- Əşi, nə bilim, ay dədəm-nənəm sənə qurban olsun! Kəfşəndən gəlirmiş, görüb ki, Sarıyoxuşda beş-altı sünbül düşüb yerə. Atdan düşüb onları bir-bir yığıb ki. gətirib tayanın üstə atsın. Görüb ki, burda da tayadan bir bafa düşüb yerə. Başlayıb haray-həşir salmağa ki, tayanı yandıracam, sünbüllər niyə yerə düşüb?" (3.s.5)

Bu epizodda hekayənin digər bir qəhrəmanı olan, müharibənin törətdiyi aclıq və qıtlıq illərində xalq malını göz bəbəyi kimi qoruyan, camaatın xeyrinə heç kəsə və heç nəyə güzzəştə getməyən əzazil bir kişi surəti kimi yadda qalan Bəhram surətinin xarakteri ilə tanış oluruq. Zahirən bu insan nə qədər cod, davakar olsa da, əslində həddindən artıq ürəyi yumuşaq, həlimxasiyyət, gözəl bir insandır. Beləki, bu kiççik parçada Bəhramın el malına yanan, onun qədrini bilməyi başqalarından da tələb edən tipik insan xarakteri verilmişdi. Elə onun tayanı yandırması da insanları bir növ tərbiyələndirmək və kolxoz malını, el malını göz bəbəyi kimi qorumağa çağırış səsidir. Bunu Bəylər kişi çox yaxşı bilir. Çünki, Bəhram keçən il də kolxozun bir danasının zəmiyə girməsinə görə iki yüz əlli baş qaramalı yandırmaq fikrinə düşmüşdü.

Bəylər kişi adamların güclə tutub saxladıqları Bəhrama yaxınlaşır, qəribə bir soyuqqanlıqla kibriti çıxardıb ona verir və tayanı yandırmasını təkid edir. Kibritin uzadılması və kibrit ağsaqalın cahil bir adama qarşı olan hirsinin son nöqtəsidir və bu nöqtənin ağırlığını Bəhram dərhal hiss edib tutduğu işə peşman olur. Bayaqdan tayanı yandırmağa məqam axtaran Bəhram Bəylər kişini qucaqlayıb əzizi ölmüş adam kimi ağlayır, atına minib kövşənə tərəf uzaqlaşır. "Bu insan psixologiyasının sərt dönüş nöqtəsinin təbii, səmimi təsviridir." (1.s.3)

70- ci illərin sonlarında müəllifin yazdığı və bütün mətbuatın diqqətini cəlb edən, yazıçının da kitabının birini bu hekayənin adı ilə çap etdirdiyi, öz məzmun və ideyası baxımından orjinal olan "Yüz ilin kişisi" hekayəsidir. Hekayə fikirlər düzümündən ibarətdir. Yazıçı insanın taleyi, həyatın mənası, ölümün labüdlüyü haqqında düşüncələr fonunda Bəylər kişinin ömrünün ayrı-ayrı epizodları ilə bizi tanış edir və oxucunun gözləri önündə yüz yaşlı, müdrik, mərd, cəfakeş, eyni zamanda güclü, əzmətli, mətin bir insanın obrazını canlandırır.

Əsərin baş qəhrəmanı olan Bəylər kişi bu dünyada düz 99 il ömür sürüb. Bu ömür yolunda o çox əziyyətlər çəkmiş, özününkü və qardaşlarını uşaqları, nəvələri ilə birgə böyük bir ailə saxlamışdı. Bəylər kişi artıq qocalmışdı. O indi öz arzuları, etdikləri ilə deyil böyütdüyü, boya başa çatdırdığı övladları, nəvələri, nəticələri ilə qürrələnir, fəxr edirdi. Bütün qohum əqrəbəsi, öz övladlarının övladları ilə bahəm bütün kənd ona baba deyə müraciət edirdi. O böyük bir kəndin, nəslin babası idi. Kənddə hamı ona məsləhət edir, onun dediyini yerinə yetirirdi. O illərlə əziyyət çəkdiyi, düz tərbiyələndirməyə çalışdığı, yaxşı təhsil verməyi özünə borc bildiyi nəvələrindən biri artıq onun arzularını yerinə yetirmiş, çəkdiyi əziyyəti yerə vurmamış və bütün bunlara layiqli bir övlad olmuşdu. Bəylər kişi onunla fəxr edirdi, çünki nəvəsi yazıçı olmuş və babasına bir hekayə həsr etmiş, özü də kitabın sərlövhəsinə həmin hekayənin adın çıxatmışdı. Bu kitab Bəylər kişiyə hər şeydən əziz idi. Birinci ona görə ki, bu kitab onun nəvəsinin yazdığı kitab idi, ikincisi də o, idi ki bu kitabda onun həyatının qısa xronikası verilmişdi. Kitabın özü haqqında hissəsi qatlanmış və digər nəticəsi tərəfindən hər gün bir neçə dəfə oxunurdu. Burada yazılan sözlər onun üçün çox əziz və doğma idi, çünki hekayədə Bəylər kişinin tale yolunun bəzi səhifələri əks edilmişdi. O, ömür yolunda yaxşı və pis adamlarla üzləşmişdi. Eyni zamanda bu tale yolunda əyri və düz yollarla, keçməkeşli həyat hadisələri ilə rastlaşmasına baxmayaraq büdrəməmiş, daim dimdik ayaq üstə qalmağa çalışmış və buna da nail olmuşdu. İstər qardaşının başına gələn faciəli hadisə, istərsə də onun üzərində qalan böyük ailənin maddiyyətini yerinə yetirmək, onların əxlaqı və təhsili ilə maraqlanması və düz yola yönləndirmək bacarığı onu öz doğruluğundan, hala zəhmətdən imtina etməsinə, əyri yolun izinə düşməsinə vadar edə bilməmişdir. Əksinə bu həyat yolunda kimsə yalmış yoldadısa onun boynunundalından basmayıb yaxşı yola düzənləmişdi və qismən buna nail olmuşdu. Öz tale yolunda düzlüklə, ədalətlə irəlləyənlərə isə çətin vəziyyətə düşəndə əlindən gələni kömək etməyə çalışmışdı. İsmayıl oğlu Bəylər nəyin ki, bu kənddəki, bəlkə də dünyadakı həmyaşıdlarını "yola salmış"dı. "... Amma özünün ağlını, düşüncəsini, oturuşunu, duruşunu heç hara yola salmamışdı. Bu kəndin dağı kimi, çayı kimi, Əsgərxan bulağı kimi ömrü uzundur, hamıya görk ediləsidir. Bu görk yazıçının içindən süzülərək, qələm süzgəcindən keçərək daha da bütövləşir, tamlaşır. Oxucu elimizdə, obamızda hələ də belə kişilərin yaşamasına sevinir və o kişilərin həyatda itməyən adlarını, əməllərini özlərində yaşatmağa çalışırlar"(2.s.10) -kimi Sabir Rüstəmovun fikirləri ilə razılaşırıq, eyni zamanda yazıçı bir növ bu obrazı ilə oxucu düşüncəsində, fikrində milli əxlaqi dəyərlərə malik olan xarakteri yoxdusa bərpa etməyə, varsa daha da möhkəmləndirməyə çalışmışdı.

Abdulla kişinin digər bir dərdi də var idi ki, məhz hekayədə də bu dərdi qabarıq şəkildə əks edilmişdi ki, bu da bir kisə kartofunun əkmək istəməsi və hələ də buna nail ola bilməməsi idi. Bəli, Abdulla kişi iki gün idi ki, kartof əkmək istəyirdi, lakin əkə bilmirdi. Bunun da əsas səbəbi yağan yağış idi. Beləki, o hər gün iki kisə kartofu əkmək üçün gətirib əkməyə başlayanda hava qaralır, yağış yağmağa başlayır, yenə də Abdulla kişi kartof kisəsini götürüb geri qayıdır. Hekayənin sonu da məhz Abdulla kişinin əsəbləşməsi və Alla şikayət etməsi və bir daha kartof əkməyəcəyini bildirməsi ilə bitir : -Allah! Ay, arxalı bəxtəvər, tay yağma! Əkmirəm! Əkmirəm! Əəə...k...rəəəm!(4.s.154)

Bu hekayədə yazıçı tərəfindən yaradılmış gənc obrazların xarakterlərinə nəzər yetirdikdə onun şahidi oluruq ki, kənd mühitində yaşayan gənclərin xarakterinin hansısa bir hissəsində milli əxlaqi dəyərlər özünü göstərir. Böyüklərin sözünə baxmaq, onların üzünə ağ olmamaq, hətta böyüklər səhv etmiş olsalar belə səhvi üzə vurmamaq kimi dəyərlər özünü saxlasa da, Əlidə tamamilə fərqli xarakterin özü istədiyini etmək vərdişi özünü göstərir. Beləki, atası razı olmasa belə sevdiyi qızı – qatıq satanın qızı olmasına rəğmən götürüb qaçması, böyüyün sözünə baxmamaq kim qiymətləndirə bilmərik. Ən azından ona görə ki, Əli atasından fərqli olaraq sevdiyi qızın özün sevir, onun üçün qızın atasının hansı təbəqəyə aid olmasının fərqli yoxdu bu da onun yüksək mənəvi əxlaqa malik olduğunu göstəriri. Eyni xarakterə malik, lakin atasında səhv tapan və atası

tərəfindən danlanan Səkinə Əlidən fərqli olaraq atasının dediyini yerinə yetirir, onun sözündən çıxmamağa çalışır.

Ədəbiyyat siyahısı:

1. Məmmədov C. "Hami elə bilirdi". "Bakı" qəzet, 1980, 8 sentyabr, s.3.
2. Rüstəmov S. "Yüz ilin kişisi". "Araz" qəzet, 1982, 4 sentyabr. S.Mümtaz ad. ARDƏİƏ. Fon 735, siy.1, iş №78, vər. 10. S. Səxavət. "Hamı elə bilirdi". Bakı, Gənclik, 1982, 204 s.
3. S. Səxavət. "Yüz ilin kişisi". Bakı, Gənclik, 1982, 202 s.
4. Yusifli V. "Hami elə bilirdi". "Azərbaycan gəncləri", 1980, 11 dekabr. S.Mümtaz ad. ARDƏİƏ. Fon 735, siy.1, iş №78, vər.3.